AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-363 nömrəli 07.08 2020-ci il
tarixli qərarı ilə təsdiq
edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

İxtisasın (proqramın) şifri və adı: 050213 Sosiologiya

BAKI – 2020

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050213 Sosiologiya İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050213 Sosiologiya"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050213 Sosiologiya"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;

- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

### 2.2 *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:*

- Qlobal, Regional və lokal səviyyədə baş verən siyasi, sosial, iqtisadi, demoqrafik, dil, mədəni, dini və digər hadisələri və prosesləri təhlil etməyi və proqnozlaşdırmağı bacarmaq; (PK-1)
- Müxtəlif sosial qrupların sosial həyatını, rifahı və ictimai həyatın müxtəlif sahələrində davranış xüsusiyyətlərini təhlil etmək bacarığına malik olmaq; (PK-2)
- Cəmiyyətin müasir sosial problemlərini təhlil etməyi, sosial gerçəkliyin təhlilində nəzəri və empirik məlumatları ayırd etməyi; sosial münasibətlərin, qrupların, sosial institutların

quruluşu və xüsusiyyətlərini, klassik və müasir sosioloji nəzəriyyənin fundamental məsələlərini təhlil etməyi bacarmaq; (PK-3)

- Sosial problemin məzmununu, sosioloji tədqiqatın obyekti və predmetinin tərifini bilməli, tədqiqat mövzusunun ifadəsini, məqsəd və vəzifələrini izah etməyi bacarmaq; (PK-4)
- Keyfiyyətli sosioloji tədqiqat metodologiyasının əsas prinsiplərini və konsepsiyalarını tətbiq etmək; keyfiyyətli tədqiqat üçün əsas strategiyaların tətbiqini bacarmaq; (PK-5)
- Siyasi sosiologiyanın əsas anlayışlarını ictimai-siyasi proseslərin təhlilində istifadə etmək, partiya sistemlərinin əsas növlərini, seçki prosesi çərçivəsində üstünlüklərini və çatışmazlıqlarını bilmək; (PK-6)
- Ailənin həyatı ilə bağlı sosioloji məlumatları toplamağı və təhlil etməyi, ailənin empirik sosioloji tədqiqatını aparmağı bacarmaq; (PK-7)
- Təşkilatın və sosial statistikanın prinsiplərini və istiqamətlərini bilmək, tədqiqat üçün zəruri olan statistik məlumatları toplamağı bacarmaq, müxtəlif növ məlumatları, onların toplanması metodlarını və onlardan istifadə formalarını müqayisə etməyi bacarmaq; statistik müşahidələrin nəticələrini şərh edə bilmək; (PK-8)
- Əhalinin səviyyəsi və yaşayış şəraiti ilə bağlı statistikanın təşkili, o cümlədən ev təsərrüfatlarının anketləri, rifah, yoxsulluq və bərabərsizlik, əhalinin rifahı, gəlirləri və istehlakını xarakterizə edən vahid indekslər, göstəricilərin hesablanması metodologiyasını tətbiq etməyi bacarmaq; (PK-9)
- Cəmiyyətin müxtəlif sahələrində sülhə, sosial kompromisə, müsbət konsensusa, dözümlülük əldə etməyə yönəlmiş sosial proqramlar həyata keçirməyi bacarmaq; (PK-10)
- Müxtəlif strukturlarda münaqişə vəziyyətlərini təhlil etmək, təşkilatın/qurumun münaqişə yaradan potensialı ilə bağlı ekspert rəylərini vermək, tətbiq olunan tədqiqat metodlarından istifadə edərək təşkilatın vəziyyəti haqqında məlumat almağı, korporativ münaqişələrin həlli üçün texnologiyalar hazırlamağı və idarəetmədə taktiki və strateji qərarların münaqişə yaradan potensialını minimuma endirməyi bacarmaq; (PK-11)
- Dini təşkilatların əsas növlərini və xüsusiyyətlərini bilmək; müxtəlif tipli cəmiyyətlərdə dini qurumların yerinə yetirilən əsas funksiyalarını bilmək; (PK-12)
- Müxtəlif tipli müasir dini qurumlarda baş verən sosial proseslər haqqında məlumatlı olmaq və ilkin təhlil aparmağı bacarmaq; (PK-13)
- Müasir cəmiyyətdəki sosial təsisatların və proseslərin innovativ inkişaf istiqamətinin meyarlarını müəyyənləşdirərkən proqnoztik metod və üsullardan istifadə etməyi bacarmaq; (PK-14)
- Tədqiqatın vəzifələri, mənbə məlumatlarının xarakteri və bu metodların tətbiq dairəsinə uyğun olaraq sosioloji məlumatların toplanması və təhlili üçün müxtəlif riyazi model və metodları tətbiq etməyi bacarmaq; (PK-15)

- Əsas komponent metodundan istifadə etməklə faktor təhlilinin imkanlarını və məhdudiyyətlərini bilmək; əldə edilmiş faktor və klaster dəyişənlərinin dəyərlərini, paralel bir testin nəticələrini və Pirson modelinin uyğun qiymətləndirmə dəyərlərini şərh etməyi bacarmaq; (PK-16)
- Müasir siyahıyaalmalar və əhali seçimi tədqiqatlarının aparılması prinsiplərini tətbiq etməyi bacarmaq; (PK-17)
- Demoqrafik statistikanın işlənməsi və təhlili üçün texnika və metodları tətbiq etməyi bacarmaq; Ümumi, yaş, xüsusi və ümumi doğuş nisbətlərini necə hesablamaq lazım olduğunu bilmək (PK-18)
- Dilin əsas fonetik, leksik, qrammatik, söz formalaşması hadisələri və fəaliyyət qaydaları, onun funksional növləri haqqında biliklər daxil olmaqla dil bilikləri sistemindən istifadə etməyi bacarmaq; (PK-19)
- Xarici mədəniyyətlərdə qəbul edilmiş etik davranış qaydalarını, ritualları, etik və əxlaqi davranış normalarını başa düşmək; dilin bütün səviyyələrində şəxsin nitq xüsusiyyətlərini (sosial statusu, etnik mənsubiyyəti və s.) tanıya bilmək; (PK-20)
- Sosial-iqtisadi, siyasi və idarəetmə proseslərinin öyrənilməsində əsas yanaşmaları, habelə onların Azərbaycanda tətbiq olunmasının xüsusiyyətlərini bilmək; (PK-21)
- Fərqli cəhətlərdən (istehsal, motivasiya, institusional və s.) iqtisadi və sosial agentlərin davranışlarını, peşə fəaliyyət sahəsindəki obyektlərin inkişaf tendensiyalarını tənqidi şəkildə qiymətləndirməyi bacarmaq; (PK-22)
- Cəmiyyətin hüquq sisteminin ən vacib elementləri və qanuni fəaliyyətin əsas növlərindən geniş sosial kontekstdə istifadə etməyi, onların ictimai hadisə və proseslərlə əlaqəsini təhlil etməyi bacarmaq; (PK-23)
- Hüquq sosiologiyasının konseptual aparatını, hüquq sosiologiyası sahəsində elmi tədqiqat metodologiyasını tətbiq etməyi bacarmaq; (PK-24)
- Sosial proseslər və sosial birliklər haqqında məlumat hazırlamağı, seçməyi, emal və təhlil etməyi bacarmaq; (PK-25)
- Müasir dünyanın müxtəlif inkişaf proseslərinin, mədəni və ictimai-siyasi problemlərin təhlili üçün müasir mədəniyyət sosiologiyasının alətlərindən istifadə etməyi bacarmaq; (PK-26)
- Mədəniyyətin müqayisəli sosiologiyasının analiz metodlarını tətbiq etməyi bacarmaq; (PK-27)
- Media auditoriyasının müxtəlif növlərini və seqmentlərini müəyyənləşdirməyi və müxtəlif metodlardan istifadə edərək medianın auditoriyaya təsirini təhlil etməyi bacarmaq; (PK-28)
- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək; Milli iqtisadiyyatın makroiqtisadi

mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını, iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq; iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq; milli iqtisadiyyatların beynəlxalq iqtisadiyyatdakı rolu, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq; (PK-29)

- Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdid yaradan əsas təhlükələr və riskləri müəyyən etmək və qiymətləndirmək, bu təhlükə və riskləri idarə etmək və tənzimləməyi bacarmaq; (PK-30)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-31)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-32)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-33)
- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-34)
- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; informasiya resurslarının strateji idarəolunması bacarıqlarına;strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq. (PK-35)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050213 Sosiologiya"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | 6 |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |

| | | |
|---|---|---|
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Riyaziyyat və statistika**<br>Fənn peşəkar sosioloqların hazırlanmasında mühüm rol oynayır. Fənn xətti cəbrin, riyazi məntiqin, qraflar nəzəriyyəsinin elementlərini, optimallaşdırma və statistik təhlil üsullarını öyrədir. Bu fənn analitik bacarıqların formalaşması, sosioloji tədqiqatların aparılması, xüsusilə ölçmə və təhlil məsələləri ilə bağlı bilik və bacarıqların formalaşması və inkişafı istiqamətində vacib yer tutur. Fənnin tədrisi zamanı əsas diqqət SPSS, Stata kimi kompyuter proqramlarının mənimsənilməsinə, bu və ya digər statistik metodun öyrənilməsinə yetirilir. | 5 |
| 6 | **Fəlsəfə**<br>Bu fənn təbiətin, cəmiyyətin və insan təfəkkürünün ən ümumi qanunları haqqında biliklər verir, dünyağörüşünün inkişafında mühüm yer tutur; fəlsəfənin məzmunu və xüsusiyyətləri, fəlsəfənin ictimai şüurun spesifik forması kimi özəllikləri ılə bağlı ümumi təsəvvür formalaşdırır; əsas fəlsəfi problemlər, fəlsəfi biliyin metodoloji rolu haqqında biliklər əldə olunamsına kömək edir; fəlsəfi təfəkkürü inkişaf etdirir. | 5 |
| 7 | **Sosial pedaqogika**<br>Bu fənn təhsil və tərbiyənin sosial pedaqoji məsələlərinin, sosiallaşma prosesinin təhlili və şəxsiyyətin fomalaşması prosesinin intensivləşdirilməsi, kollektivin sosial-pedaqoji problemləri, xüsusilə müxtəlif inkişaf mərhələlərində tərbiyə işinin xüsusiyyətləri, ünsiyyət və asudə vaxt məsələləri, ailə tərbiyəsinin sosial-pedaqoji məsələləri, sosial tərbiyənin nəzəriyyəsi və metodikası kimi xüsusi aktuallıq kəsb edən məsələləri əks etdirir. | 4 |
| 8 | **Siyasət nəzəriyyəsi**<br>Fənnin çərçivəsində tələbələr siyasi nəzəriyyənin əsas kateqoriyalarını, paradiqmaları, siyasi elmin əsas metodlarını, müasir politoloji konsepsiyalar və nəzəriyyələri, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətlərini, siyasi elita və siyasi liderləri, dövlət siyasi institut kimi, siyasi partiyalar və ictimai hərəkatları, siyasi sistemlər və siyasi rejimləri, siyasi ideologiya, siyasi psixologiya, siyasi mədəniyyət və siyasi prosesləri öyrənirlər. | 4 |
| 9 | **Hüququn sosiologiyası**<br>Bu fənn hüquq sosiologiyasının anlayışı, predmeti, metodologiyası, onun digər hüquq və qeyri-hüquq elmləri sistemindəki yeri və rolu ilə əlaqəli bir çox məsələni araşdırır; dövlətin hüquqi həyatının sosioloji aspektləri, hüquqi sosiallaşma, hüquqi mədəniyyət və hüquqi şüur, hüquq praktikasının sosiologiyasına dair biliklər verir. | 3 |
| 10 | **Sosial psixologiya**<br>Sosial psixologiya fənni insanlarla onların xarici mühiti arasında olan qarşılıqlı münasibətlər, insanların qavrama prosesinə təsir edən sosial | 5 |

| | | |
|---|---|---|
| | amillər və insanlar arası münasibətlər haqqında bilik və bacarıqlar öyrədir. Fərdin düşüncələrinə, hisslərinə və davranışlarına təsir edən sosial situasiyaların təsiri araşdırılır. Sosial psixologiya fənni şəxsdaxili (emosiyalar, sosial idrak, yönəliklik, "mən" anlayışı) və şəxslərarası (digərlərinə kömək etmə, aqressiya, qərəzli münasibət və ayrıseçkilik, cəlb etmə, qrup prosesləri və qruplar arası münasibətlər) səviyyələrdə baş verən prosesləri təhlil edir. Fənn tədris olunarkən sosial psixologiya sahəsində müxtəlif nəzəri baxışlar və tədqiqatlar təqdim olunaraq təhlil edilir. | |
| 11 | **Ümumi sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, cəmiyyətin əsas hissələrinin və proseslərinin qarşılıqlı təsirdə sosioloji təhlilini təqdim edir. Bu təhlil istər sosial faktların, istərsə də onları izah edən sosial modellərin və ya nəzəriyyələrin öyrənilməsinə əsaslanır. Burada ümumi sosiologiyanın strukturu, predmeti, metodologiyası, metodlarının xüsusiyyətləri, müasir sosioloji biliyin nəzəri səviyyələri, eləcə də xüsusi sosioloji konsepsiyaların müxtəlifliyi təhlil və tədqiq edilir, bu sahədə elmi axtarışların mümkün perspektivləri öyrənilir. | **10** |
| 12 | **Sosioloji tədqiqat metodları**<br>Bu fənn sosioloji tədqiqatın strukturu, məntiqi, əsas prosedurları və təşkili, onun proqramı və işçi planı, ilkin sosioloji informasiyanın toplanılması metodları, sosioloji tədqiqatın təşkili üçün seçmə metodundan istifadəni, empirik məlumatların emalı, təhlili, interpretasiyası və ümumiləşdirilməsi, sosioloji tədqiqatın nəticələrinin idarəetmə fəaliyyətinə tətbiqi üçün təkliflərin hazırlanması haqqında bütöv, sistemli təsəvvürə malik olmaq üçün metodoloji və metodiki biliklərə yiyələnməyi öyrədir. | **10** |
| 13 | **Sosiologiya tarixi**<br>Bu fənn sosiologiya tarixinin obyekti və predmeti, sosiologiyanın yaranmasının intellektual mənbələri və sosial-tarixi şəraiti, sosioloiyanın klassikləri və müasir görkəmli nümayəndələri, onun inkişafının əsas istiqamətləri və məktəbləri haqqında təsəvvürlər yaradır, sosioloji nəzəriyyələrin əsas fikir və konsepsiyalarını, sosiologiya tarixinin məntiqindəki yanaşmaları, onların kreativ və sistemli olaraq cəmiyyətin problemlərinin öyrənilməsinə tətbiqini öyrədir, sosiologiya elminin analitik potensialının inkişafını izləyir, premodern, modern və postmodern cəmiyyətlərinin müqayisəli şəkildə başa düşülməsini təmin edir. | **12** |
| 14 | **Siyasi sosiologiya**<br>Bu fənn ictimai-siyasi münasibətlər, şüur, mədəniyyət, fəaliyyət, onların funksiyası və dəyişikliyi qanunları, siyasi hadisələrin və proseslərin tədqiqinin müasir metod və metodikaları ilə əlaqəli bütün problemlər | **5** |

| | | |
|---|---|---|
| | toplusunu dərindən öyrənir; cəmiyyətin bütün sahələrində siyasət və siyasi fəaliyyətin təhlilini təqdim edir; siyasətin və cəmiyyətin, siyasi ilə sosialın qarşılıqlı əlaqəsi ilə bağlı siyasətin sosial aspektlərini öyrədir. | |
| 15 | **Ailənin sosiologiyası**<br>Bu fənn sosiologiyanın ailəni öyrənən bir sahəsi olub, ailənin sosial bir qurum və kiçik bir sosial qrup kimi fəaliyyət göstərməsini, ailənin quruluşu və funksiyalarını, nigah və ailə münasibətlərini, müəyyən bir mədəniyyət növünə, bu və ya digər sosial qrupa xas olan ailə davranış qaydalarını və sosial siyasətin əsas istiqamətlərini öyrənir; ailə və nigah sahələri, ailənin empirik araşdırılması, sosial problemlər və müasir ailənin dəyişən inkişaf istiqamətlərini izah edir. | 4 |
| 16 | **Sosial münaqişələr**<br>Bu fənn sosial münaqişələri sosioloji elmin nöqteyi-nəzərindən öyrənir; sosial münaqişələrin səbəbləri, iştirakçıları, subyektləri, təsnifatı, tipologiyası, münaqişələrin növləri və formaları, münaqişə dinamikası kimi məsələlər daxil olmaqla, habelə sosial münaqişələrin ictimai həyatda roluna, sosial münaqişələrin idarə olunması texnologiyasına, tənzimlənməsinə və s. məsələlərə diqqət yetirir.Bununla yanaşı, fənn çərçivəsində sosial münaqişələrə dair nəzəriyyələr də təhlil olunur. | 5 |
| 17 | **Dinin sosiologiyası**<br>Bu fənn dini sosioloji tədqiqatın predmeti kimi xarakterizə edir, onun tədqiqat metodlarını öyrədir, bu elm sahəsinin yaranması və inkişafına dair klassiklərin irsinə istinad edilərək müxtəlif yanaşmalar haqqında məlumat verilir; din fenomeninin başa düşülməsini, cəmiyyətlə din arasındakı münasibətləri, dinin sosial funksiyalarını, dini təşkilatların formalarını və onların sosial proseslərdə rolunu öyrədir. | 4 |
| 18 | **Sosial struktur və sosial stratifikasiya**<br>Bu fənn cəmiyyətin sosial quruluşunu, sosial təbəqələşmənin təbiəti və funksiyalarını təhlil edən əsas metodoloji yanaşmalar və konseptual aparat haqqında nəzəriyyə və yanaşmaları təqdim edir, müxtəlif tip cəmiyyətlərdə sosial quruluşun xüsusiyyətlərini öyrədir; cəmiyyətin sinfi quruluşunun xüsusiyyətlərini, sosiologiya elmi tarixində siniflərə iki əsas yanaşmanı, o cümlədən sosial təbəqələşmənin müasir xarici konsepsiyalarının inkişafını göstərir; cəmiyyətinin sosial quruluşu haqqında bilik və bacarıqların əldə edilməsi haqqında məlumat verir. | 5 |
| 19 | **Məlumatların təhlili və ölçmə nəzəriyyəsi**<br>Sosial problemlər və proseslərin öyrənilməsi və praktik sosioloji tədqiqatlarda müxtəlif əlamət və xüsusiyyətlərin hansı ölçü sistemi vasitəsi ilə ölçülməsi və hansı analiz modelindən istifadə edərək əldə edilmiş məlumatların təhlil edilməsini bilmək sosioloq tələbələr üçün böyük əhəmiyyət kəsb edir. Burada müxtəlif tipli şkalalar, onlara uyğun dəyişənlər və müvafiq analiz modelləri öyədilir, kəmiyyət və keyfiyyət | 4 |

| | | |
|---|---|---|
| | tədqiqatlarında verilənlərin təhlili üçün nəzərdə tutulmuş müxtəlif proqramlar izah edilir. | |
| 20 | **İqtisadiyyatın əsasları**<br>Fənn çərçivəsində iqtisadi nəzəriyyənin əsas qanun və kateqoriyaları, iqtisad elminin konsepsiyaları və müasir iqtisadi fikrin əsas istiqamətləri, iqtisadi proseslər, iqtisadi qanunauyğunluqlar, iqtisadi alətlər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, bazar iqtisadiyyatı, bazar iqtisadiyyatında dövlətin rolu və funksiyaları, iqtisadi fəaliyyət, iqtisadi artım, milli iqtisadiyyat və dünya təsərrüfatı, makroiqtisadiyyat, mikroiqtisadiyyat, bazar iqtisadiyyatının modelləri haqqında biliklər əldə olunacaq;<br>bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir;iqtisadi subyeklərin qərar qəbul etməsini şərtləndirən prinsiplər mənimsənilir. | 4 |
| 21 | **Demoqrafiya**<br>Bu fənn əhali haqqında elm olub, əhalinin strukturu, yerləşməsi, miqrasiyası və dinamikasında baş verən sosial, iqtisadi, eyni zamanda bioloji və coğrafi amilləri, müxtəlif səbəb və şərtlər əsasında hadisələrin və proseslərin qanunauyğunluqlarını öyrənir. Müasir dövr üçün mühüm əhəmiyyət kəsb edən demoqrafik proqnozlaşdırmanın köməyi ilə ayrı-ayrı demoqrafik situasiyalarda baş verən prosesləri tədqiq və təhlil edir | 3 |
| 22 | **Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.); informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri; | 3 |

| | | |
|---|---|---|
| | İnformasiya təhlükəsizliyi və ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması və s., Təqdimatların hazırlanması, PDF faylların hazırlanması və redaktəsi, Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarətmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | |
| 23 | **Sosiolinqvistika**<br>Bu fənn sosiolinqvistikanın nəzəriyyə və metodlarını bir elm kimi nəzərdən keçirir; dili onun fəaliyyətinin sosial və kommunikativ şəraiti ilə əlaqəli öyrənir; müasir sosiolinqvistikanın problemləri, istiqamətləri və metodları haqqında biliklər əldə etməklə onları linqvistikanın müxtəlif istiqamətlərində tətbiq etməyi öyrədir. | 3 |
| 24 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| 25 | **Sosial menecment**<br>Bu fənn təşkilatda və ya idarəetmə strukturunda sosial situasiyanın qiymətləndirilməsini, problem situasiyanı aşkar edə bilən və insan resurslarının idarə edilməsinin optimallaşdırılmasını və müəssisənin bütün sosial resurslarının istifadə edilməsi effektivliyinin yüksəldilməsini öyrədir; insan resurslarının səmərəli istifadə edilməsi və potensialının aşkar edilməsi məqsədilə sosial təşkilatın layihələndirilməsinə daxil olan praktik biliklər verir. | 4 |
| 26 | **Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları**<br>Fənn çərçivəsində milli təhlükəsizlik nəzəriyyələri, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin konseptual və hüquqi əsasları, prinsipləri, bütövlükdə milli təhlükəsizlik sistemi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli təhlükəsizliyinə ən ciddi təhdid kimi, Azərbaycanın hərbi təhlükəsizliyi, iqtisadi təhlükəsizliyi, enerji təhlükəsizliyi, informasiya-ideoloji | 3 |

| | | |
|---|---|---|
| | təhlükəsizliyi, ekoloji təhlükəsizliyi, Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin edilməsi prosesində iştirakı, transmilli təhlükələrə qarşı mübarizə kimi məsələlər tədris olunur. | |
| 27 | **Sosial proqnozlaşdırma və layihələndirmə**<br>Bu fənn sosial proqnozlaşdırma və layihələndirmənin tarixi, nəzəriyyəsi və təcrübəsinin meydana gəlməsi, təşəkkülü və inkişafını; bütövlükdə bu elm sahəsinə dair ümumi konseptual aparatı və onun xüsusi bölmələrinin terminologiyasını; konkret sosial-proqnostik tədqiqatın aparılmasının metodiki və texniki əsaslarını; sosial-iqtisadi, sosial-siyasi, sosial-mədəni və d. proqnozlaşdırma və layihələndirmə xüsusiyyətlərini; əldə edilmiş bilikləri sosial proqnozların və layihələrin qurulmasında tətbiq etməyi öyrədir. | 4 |
| 28 | **Mədəni sosiologiya**<br>Bu fənn mədəniyyətin sosiologiyasının predmeti və vəzifələri; mədəni fəaliyyətin struktur ünsürləri; bəşəriyyətin mədəni təkamülünün tarixi mərhələləri; ənənəvi və müasir mədəniyyətlər; mədəniyyətin elementləri; mədəniyyətin formaları; mədəniyyətin cəmiyyətdə yerinə yetirdiyi funksiyaları;mədəniyyət və sivilizasiyanın qarşılıqlı əlaqəsi; mədəni dəyişikliklər və mədəni tərəqqi; mədəniyyət siyasəti haqqında biliklər verir. | 4 |
| 29 | **Media və cəmiyyət**<br>Bu fənn mediaya cəmiyyətin sosial, siyasi, iqtisadi və mədəni inkişafına təsir edən başlıca amillərdən biri olaraq öz spesifik funksiyaları, mahiyyəti, fəaliyyət mexanizmi və təsir imkanlarına malik olan bir sosial institut kimi yanaşır; medianın cəmiyyətə təsir formaları, media savadlılığı, informasiyanın dezinformasiyadan seçilməsi üsulları və media-cəmiyyət münasibətlərində imperativ münasibətlər fazasından interaktiv münasibətlər fazasına keçid məsələlərinin sosioloji rakursdan təhlili və izah edir. | 4 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | **60** |
| | **Təcrübə** | **30** |
| | **Cəmi** | **240** |

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **"050213 Sosiologiya"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050213 Sosiologiya"** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə sosialoq mütəxəssis/məsləhətçi olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. **"050213 Sosiologiya"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Təhsil" ixtisaslar qrupuna daxil olan "060119 Pedaqogika" (Sosial pedaqogika, Təhsildə qiymətləndirmə və monitorinq), "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060202 Fəlsəfə" (Sosial fəlsəfə, Humanitar elmlərin fəlsəfi problemləri), "060204 Jurnalistika"(bəzi ixtisaslaşmalar üzrə), "060207 Antropologiya" (Mədəni antropologiya), "060208 Politologiya" (bəzi ixtisaslaşmalar üzrə), "060210 Sosiologiya", "060212 Hüquqşünaslıq"(İnsan hüquqları), "060214 Dinşünaslıq"(bəzi ixtisaslaşmalar üzrə), "060216 Dövlət və ictimai münasibətlər", "060302 Sənətşünaslıq"(bəzi ixtisaslaşmalar üzrə), "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan "060408 Marketing", "060410 Dövlət və bələdiyyə idarəetməsi"(bəzi ixtisaslaşmalar üzrə), "060411 Kommersiya"(bəzi ixtisaslaşmalar üzrə), "060412 Davamlı inkişafın idarə edilməsi"(Müəyyən ixtisaslaşmalar üzrə), "060805 Sosial iş" (bəzi ixtisaslaşmalar üzrə) Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini,

Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

________________Yaqub Piriyev

"06" 08 2020-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə

Dövlət Təhsil Proqramlarını Hazırlayan işçi qrupun sədri

________________Fariz İsmayılzadə

"05" avqust 2020-ci il

Əlavə 1

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)<br>Tələbələr aşağıda sadalanan bacarıqları əldə edirlər:** |
|---|
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, bir neçə dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN 2. Sosiologiyanın sosial elmlər arasında yerini, prinsiplərini bilmək, müasir dünyada baş verən sosial proseslər, problemlər və hadisələri müqayisə etmək bacarığını formalaşdırmağı, tədqiqat məsələlərinin elmi və praktik dəyərini qiymətləndirməyi, sosioloji nəzəriyyələrdən əldə edilən konsepsiyalara yeni təfəkkür kontekstindən tənqidi, yaradıcı yanaşmağı və onu əsaslandırmağı, ölkədə cəmiyyətin müxtəlif sferalarında həyata keçirilən islahatların sosioloji mahiyyətini anlamağı bacarır |
| PTN 3. Cəmiyyətin inkişafının qanunauyğunluqlarını, sosiologiya sahəsində nəzəri, empirik və statistik məlumatlardan istifadə yollarını, sosial problemləri onların xarakteri və təzahür sahələrindən asılı olaraq müəyyənləşdirilməsini, sosioloji biliyin mahiyyətini anlayaraq onlardan istifadə etməyi, bu elmin strukturu və əsas səviyyələri (ümumnəzəri, orta səviyyəli nəzəriyyələr və empirik), Azərbaycanda bütün dövrlərdəki sosial-siyasi fikirlər, elmi tədqiqat metodları haqqında müasir biliklər əldə edərək sosioloji fikirdə əsas yer tutan proqramları və strategiyaları təhlil etməyi bacarır; sosial münaqişələrin idarə olunması texnologiyasınI, tənzimlənməsinİ və s. məsələləri, sosial hadisələrin qarşılıqlı əlaqə və asılılıqlarını müəyyənləşdirir, onların inkişaf dinamikasını izləməyi, müqayisəliliyi təmin etməyi bacarır; müasir sosiolinqvistikanın problemləri, istiqamətləri və metodları haqqında biliklər əldə etməklə onlqarı linqvistikanın müxtəlif istiqamətlərində tətbiq etməyi bacarır, insan resurslarının idarə edilməsinin optimallaşdırılmasını və müəssisənin bütün sosial resurslarının istifadə edilməsi effektivliyinin yüksəldilməsinin nəzəri əsaslarına yiyələnir |
| PTN 4. Bir tədqiqatçı kimi sosiologiyanın müxtəlif sahələrində tədqiqatların məqsəd və vəzifələrini sərbəst şəkildə formulə və onları ən yeni xarici və yerli təcrübə əsasında müasir tədqiqat metodları vasitəsilə həll etməyi bacarır; qarşısına qoyduğu məqsəd və vəzifələri düzgün dərk etməklə, onları reallaşdırmağın metod və üsullarını aydın görməklə nəzəri və təcrübi ümumiləşdirmələrə nail olmaq bacarıqlarını nümayiş etdirir. |
| PTN 5. Müasir dünyada mövcud olan aktual sosial problemləri müəyyənləşdirib onların bugünki vəziyyətini müstəqil olaraq təhlil etmək, keçmişlə müasirliyi əlaqələndirmək, hər bir sosioloji məktəbin dünya sosiologiya tarixində yerini, rolunu və əhəmiyyətini şərh etməyi bacarır. |
| PTN 6. Sosial faktları izah etmək üçün sosioloji mənbələrin kompleks analizi metodlarını tətbiq etməyi, ictimai inkişafın elmi modellərindən istifadə etməyi, sosiologiya tarixinin əsas inkişaf mərhələləri və hazırkı vəziyyəti haqqında mülahizələr irəli sürməyi, sosioloji baxışlar sisteminin zənginləşməsinə təsir edən amilləri, onun müxtəlif mədəniyyətlərin |

| |
|---|
| qarşılıqlı nüfuz etmə prosesi nəticəsində yaranması haqqında müasir konsepsiyaları, müxtəlif tip cəmiyyətlərdə sosial quruluşun xüsusiyyətləri,cəmiyyətlə din arasındakı münasibətləri, müasir dövr üçün mühüm əhəmiyyət kəsb edən demoqrafik proqnozlaşdırmanın köməyi ilə ayrı-ayrı demoqrafik situasiyalarda baş verən prosesləri, dinin sosial funksiyalarını, dini təşkilatların formalarını və onların sosial proseslərdə rolunu təhlil etməyi bacarır. |
| PTN 7. Sosial proseslər və hadisələrin bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirmək, onların çərçivəsini lokal, ümümmilli və qlobal səviyyələrdə müəyyənləşdirmək, bunlar haqqında informasiyaları ümumiləşdirmək, sistemləşdirmək, tənqidi təhlil əsasında onların həllinin optimal yolları barədə qənaətlər irəli sürmək bacarıqlarına yiyələnir; cəmiyyətin əsas hissələrinin və proseslərinin qarşılıqlı təsirdə sosioloji təhlilini təqdim etməyə, sosial problemlər və proseslərin öyrənilməsi və praktik sosioloji tədqiqatlarda müxtəlif əlamət və xüsusiyyətlərin hansı ölçü sistemi vasitəsi ilə ölçülməsi və hansı analiz modelindən istifadə edərək əldə edilmiş məlumatların təhlil edilməsinə, professional məsələlərin həlli zamanı humanitar və sosial-iqtisadi elmlərin əsas metod və qanunlarından istifadə etməyə, iqtisadi reallığın mənəvi-praktik mənimsənilməsi yolu ilə sosioloji təfəkkürün formalaşmasına nail olur. |
| PTN8. Multikultural dəyərlərə və düşüncə tərzinə yiyələnərək, əxlaqın əsas anlayışları, sosiologiyanın müxtəlif sahələrinin əsas kateqoriyaları, sosiallaşma prosesi və şəxsiyyətin fomalaşması prosesinin intensivləşdirilməsi, müəyyən bir mədəniyyət növünə, bu və ya digər sosial qrupa xas olan ailə davranış qaydalarını və sosial siyasətin əsas istiqamətləri haqqında biliklərə yiyələnərək onları tətbiq etməyi bacarır; medianın cəmiyyətə təsir formalarını təhlil etməyi bacarır |
| PTN 9. Sosioloji biliklərin köməyi ilə informasiyanı ümüiləşdirmə, təhlil etmə və qavramaq, ictimai hadisələrə obyektiv qiymət vermək, onlardan düzgün nəticələr çıxarmaq qabiliyyətlərinə malikdir; hüquqi və etik məsələlərinin həllinə əsaslı yanaşmaları, ictimai-siyasi münasibətlər, şüur, mədəniyyət, fəaliyyət, onların funksiyası və dəyişikliyi qanunları ilə bağlı problemləri təhlil etməyi bacarır. |
| PTN 10. Sosial-iqtisadi, sosial-siyasi, sosial-mədəni və d. proqnozlaşdırma və layihələndirmə xüsusiyyətlərini, əldə edilmiş bilikləri sosial proqnozların və layihələrin qurulmasında tətbiq etməyi bacarır; cəmiyyətin aktual sosial-psixoloji məsələləri barədə əldə etdiyi sistemli elmi biliklərdən istifadə etməyə çalışır. |
| PTN 11. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, əsas təhdidlər və onlara qarşı mübarizəyə dair sistemli bilikləri formalaşdırılıb; Azərbaycan Respublikasının Milli Təhlükəsizliuinin konseptual və hüquqi əsaslarını təhlil edərək onun tətbiq olunduğu mühiti izah etməyi bacarır; Strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarır; Siyasət, sosial və iqtisadi sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarır. |
| PTN 12 İqtisadi nəzəriyyənin, mikro və makro iqtisadiyyatın əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; İqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə |

| |
|---|
| təkliflər irəli sürməyi bacarmaq; böhran dövründə iqtisadiyyatın tənzimlənməsi alətlərindən istifadə etməyi bacarmaq, əmək bazarının fəaliyyətini və ona xas olan elementləri təhlil edə bilmək, iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq, iqtisadi məktəblərin fundamental konseptlərini başa düşmək və müasir fikir və yanaşmaları şərh edə bilmək, iqtisadi sistemləri müqayisəli təhlil etməyi bacarmaq. |
| PTN 13. Siyasi sistemləri, siyasi rejimləri, siyasi partiyaları, dövlət hakimiyyət orqanlarının fəaliyyətini, müxtəlif ölkələrin siyasi sistemlərini müqayisəli əsasda təhlil etməyi, bu məqsədlə siyasi təlimlərdən, nəzəriyyələrdən istifadə etməyi bacarır; siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacarır; siyasi sistemləri və siyasi prosesləri müqayisəli əsasda tənqidi təhlil edərək, əsas meylləri və problemləri müəyyən etməyi və bütövləkdə siyasi proseslərin inkişaf perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarır. |

## Fənn üzrə təlim nəticələri (FTN)

| **“Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin |

| |
|---|
| düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| **"Riyaziyyat və statistika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Sosial proseslərinin riyazi modelləşdirilməsi üsullarına yiyələnir. |

| |
|---|
| FTN 2 Statistik metod və qanunlara əsaslanan informasiyanın təhlili üsullarına yiyələnir. |
| FTN 3 Məlumatların statistik işlənilməsi və statistik hesabatların hazırlanması bacarıqlarını əldə edir. |
| FTN 4 Optimallaşdırma üsullarının sosial proseslərə tətbiq etmək bacarıqlarını əldə edir. |
| FTN 5 Riyazi-analitik bacarıqları formalaşdırır, sosial və riyazi statistik hesablamaları aparmağı bacarır. |
| FTN 6 Binar münasibətləri matrislər və qraflar vasitəsilə təsvir etmək bacarığı əldə edir. |
| FTN 7 Sosial statistik tədqiqat üçün zəruri olan statistik məlumatlarla işləməyi, müxtəlif növ məlumatları, onların toplanması metodlarını və onlardan istifadə formalarını müəyyən etməyi, statistik müşahidələrin nəticələrini şərh etməyi bacarır. |
| FTN 8 Statistik göstəriciləri hesablamağı, hesablamaların nəticələrini sosial-iqtisadi analizdə istifadə etməyi bacarır. |

| **"Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN 2 Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| FTN 3. İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| FTN 4. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| FTN 5. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| FTN 6. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN 7. Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN 8. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN 9. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN 10. İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN 11. Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN 12. Verilənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **"Siyasət nəzəriyyəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Seçki prosesinin və siyasi hakimiyyətin formalaşmasını təhlil edərək onun demokratikliyini ölçmə səriştəsinə. |
| FTN 2 Siyasi proseslərdə iştirak etmək, liderlik və idarəetməyi bacarmaq. |

| |
|---|
| FTN 3 İdeoloji və psixoloji hücumlara qarşı müqavimət göstərmək və ölkənin siyasi maraqlarını müdafiə etmək bacarığına. |
| FTN 4 Müasir politoloji konsepsiyaları və nəzəriyyələri mənimsəyərək siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq. |
| FTN 5 Siyasi prosesləri yönləndirməyi bacarmaq. |
| FTN 6 Siyasi sistemlər, siyasi rejimlər, siyasi partiyalar, ictimai hərəkatlar, siyasi ideologiya, siyasi psixologiya və siyasi mədəniyyət haqqında biliklərə əsaslanaraq siyasi sahədə tədqiqat aparmağı bacarmaq. |

| **Fəlsəfə** |
|---|
| **FTN 1** Tənqidi və özünütənqidi düşünməyi, təhlil əsasında zəruri hallarda düşüncə tərzini dəyişməyi, ortaya çıxan problemlərə yeni yollar və yeni həllər təklif etməyi bacarır. |
| **FTN** Genişmiqyaslı (konseptual) düşünməyi, əhəmiyyətli faktiki materialı sistematik şəkildə təqdim etməyi bacarır. |
| **FTN 3** Mədəniyyətlərarası əməkdaşlıq qabiliyyətini inkişaf etdirir, digər görüşlərə anlaşıqlı və dözümlü münasibət göstərməyi bacarır. |
| **FTN 4** Mənəvi dəyərlərin müsbət sisteminə əsaslanan fəal vətəndaşlıq mövqeyi nümayiş etdirməyi bacarır. |
| **FTN 5** Tənqidi düşünmə bacarıqlarına sahib olur; beynəlxalq, regional və lokal mühitdə siyasi, sosial-iqtisadi və mədəni proseslərin hərtərəfli və situasiya təhlilini aparmağı bacarır. |
| **FTN 6** Gələcəyə yönəlmiş yanaşmalar və qərarlar hazırlayır; problemlərə sistemli və qlobal yanaşma tətbiq etməyi bacarır. |

| **Sosial pedaqogika** |
|---|
| **FTN 1** Ümumi, spesifik (müxtəlif növ pozğunluqlar üçün) nümunələri, zehni və psixofizioloji inkişafın fərdi spesifikasını, müxtəlif yaş səviyyələrində insan davranışının və fəaliyyətinin xüsusiyyətlərini müəyyənləşdirməyi bacarır. |
| **FTN 2** Peşə fəaliyyətində sağlamlığa qənaət edən texnologiyalardan istifadə etməyi, sosial mühitin və təhsil məkanının risk və təhlükələrini təhlil etməyi bacarır. |
| **FTN 3** Sosial-mədəni inkişaf vəziyyətinin xüsusiyyətləri nəzərə alınmaqla,çoxmədəniyyətli bir mühitdə peşəkarcasına fəaliyyət göstərməyi bacarır. |
| **FTN 4** Müasir cəmiyyətin inkişafında sosial, psixoloji, pedaqoji və d. məlumatların mahiyyətini və əhəmiyyətini dəyərləndirir və onlardan səmərəli istifadə etməyi bacarır. |
| **FTN 5** Sosial pedaqogikanın əsas problemlərini təhlil və onlardan istifadə etməyi bacarır. |
| **FTN 6** Sosial pedaqogika ilə bağlı İnternet resurslarından uyğun şəkildə istifadə və onları tətbiq etməyi bacarır. |

| **Sosial psixologiya** |
|---|
| **FTN 1** Müxtəlif sosial-psixoloji hadisələri izah edən konseptual aparatdan istifadəni, sosial cəhətdən əhəmiyyətli problemlər və prosesləri təhlil etməyi bacarır. |

| |
|---|
| **FTN 2** Ekspert, konsaltinq və analitik fəaliyyətlərin həyata keçirilməsində sosial və humanitar elmlərin metod və nəzəriyyələri barədə biliklərdən istifadə etməyi bacarır. |
| **FTN 3** Müvafiq sosial problemləri öyrənmək, sosial qrupların ehtiyac və maraqlarını müəyyən etmək üçün sosioloji tədqiqat metodlarından istifadə etməyi bacarır. |
| **FTN 4** Sosial psixologiyanın əsas və peşəkar profilli nəzəri əsaslarından istifadə etməyi bacarır. |
| **FTN 5** Şəxslərarası və qruplararası qavrayış və qarşılıqlı münasibətlərin sosial-psixoloji qanunlarını, sosial qruplardakı tipik psixoloji prosesləri izah etməyi bacarır. |
| **FTN 6** Şəxslərarası və qrup ünsiyyətinə təsir edən sosial-psixoloji və mədəni amilləri təhlil və onlardan istifadə etməyi bacarır. |

| **Ümumi sosiologiya** |
|---|
| **FTN 1** Klassik nəzəriyyələr və müasir sosioloji yanaşmalarla bağlı nəzəri biliklərdən praktiki istifadə etməyi bacarır. |
| **FTN 2** Sosiologiyanın predmet sahəsinə dair məsələləri kreativ, tənqidi və sistemli şəkildə təhlil etməyi bacarır. |
| **FTN 3** Müxtəlif sosial qrupların sosial həyatı, rifahı və sosial sahədə davranış xüsusiyyətlərini təhlil etməyi bacarır. |
| **FTN 4** Milli-mədəni məkanın xüsusiyyətlərini və müxtəlif milli, cins, yaş qruplarının və sosial qurumların fəaliyyətlərini sosial layihə obyekti kimi tətbiq etməyi bacarır. |
| **FTN 5** Sosioloji biliklərin əsaslarını peşə fəaliyyətində və müxtəlif sosial hadisələrin təhlilində yaradıcı şəkildə tətbiq etməyi bacarır. |
| **FTN6** Sosioloji bilikləri sistemləşdirmək və dərinləşdirmək üçün mənbələr və elmi ədəbiyyatdan istifadə etməyi bacarır. |

| **Sosiologiya tarixi** |
|---|
| **FTN 1** Sosioloji elmin təsisatlanma prosesinin gedişatını və istiqamətlərini, bunlardan çıxış edərək Azərbaycan sosiologiyasının dünya sosiologiyasındakı yeri və rolunu təhlil və izah etməyi bacarır. |
| **FTN 2** Cəmiyyətin müasir sosial problemlərini təhlilini, sosial gerçəkliyin təhlilində nəzəri və empirik məlumatları müəyyənləşdirməyi, sosial münasibətlərin, qrupların, sosial institutların quruluşu və xüsusiyyətlərini, klassik və müasir sosioloji nəzəriyyənin fundamental məsələlərini təhlil etməyi bacarır. |
| **FTN 3** Bu kurs üçün tövsiyə olunan ilkin mənbələrin mətnlərini sərbəst oxuyub, şərhlər verməyi bacarır. |
| **FTN 4** Tətbiqi sosioloji tədqiqatlar zamanı sosioloji məlumatların izah və təfsirində sosiologiyanın nəzəri konsepsiyalarından istifadə etməyi bacarır. |
| **FTN 5** Müqayisəli analiz metodlarından, klassik və müasir sosioloji nəzəriyyələrin kateqorial aparatından sosioloji tədqiqatlarda istifadə etməyi bacarır. |

| |
|---|
| **FTN 6** Nəzəri və tətbiqi problemlərin ekstrapolyasiya həlli üçün sosiologiyanın elmi-nəzəri paradiqmalarından müqayisəli şəkildə istifadə etməyi bacarır. |

| **Sosioloji tədqiqat metodları** |
|---|
| **FTN 1** Müasir dünyadakı sosial problemlərin və proseslərin mahiyyətini və məzmununu başa düşür, bu sahədə baş verənləri izah etmək üçün sosioloji tədqiqat metodlarının tətbiq dairəsini müəyyənləşdirərək onlardan istifadə etməyi bacarır. |
| **FTN 2** Kəmiyyət sosioloji tədqiqat metodlarının əsas prinsiplərini və konsepsiyalarını tətbiq edir; keyfiyyətli tədqiqat üçün əsas strategiyaların tətbiqinin xüsusiyyətlərini bilir. |
| **FTN 3** Keyfiyyət sosioloji tədqiqat metodlarının əsas prinsiplərini və konsepsiyalarını tətbiq edir; keyfiyyətli tədqiqat üçün əsas strategiyaların tətbiqinin xüsusiyyətlərini bilir. |
| **FTN 4** Yığılan kəmiyyət və keyfiyyət məlumatlarını düzgün təhlil etməyi və bu istiqamətdə əsas yanaşmalardan istifadə etməyi bacarır. |
| **FTN 5** Müasir sosial prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacarır. |
| **FTN 6** Müstəqil sosioloji tədqiqat aparmaq üçün tədqiqatın proqramını tərtib etməyi, hesabat hazırlamağı bacarır. |

| **Siyasi sosiologiya** |
|---|
| **FTN 1** Siyasi sosiologiyanın əsas nəzəriyyə və yanaşmalarını mənimsəyərək onları real sosial-siyasi proseslərə tətbiq etməyi bacarır. |
| **FTN 2** Siyasi sosiologiyanın əsas anlayışlarını ictimai-siyasi proseslərin təhlilində istifadə edir, partiya sistemlərinin əsas növlərini, seçki prosesi çərçivəsində üstünlüklərini və çatışmazlıqlarını müəyyən edə bilir. |
| **FTN 3** Siyasi davranış barədə dəlilləri, analitik məlumatları təhlil və təqdim etməyi bacarır. |
| **FTN 4** Reallıq hadisələrini təhlil etmək üçün praktikada siyasi davranış və partiya sistemləri haqqında biliklərdən istifadə edir. |
| **FTN 5** Real siyasi prosesləri, siyasi layihələrin və siyasi kampaniyaların sosioloji dəstəyini öyrənmək üçün siyasi və sosioloji bilik və tədqiqat metodlarını tətbiq etməyi bacarır. |
| **FTN 6** Müasir dünyada baş verən sosial-siyasi problemləri və prosesləri qiymətləndirməyi, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacarır. |

| **Ailənin sosiologiyası** |
|---|
| **FTN 1** Müasir şəraitdə ailə institutunun funksiyaları, tipologiyası və quruluşunu təhlil etməyi, bu məqsədlə elmi paradiqmalardan, nəzəriyyələrdən istifadə etməyi bacarır. |
| **FTN 2** Müasir ailənin problemlərini, onların həlli yollarını təhlil etməyi və bununla bağlı təkliflər irəli sürməyi bacarır. |
| **FTN 3** Cəmiyyətin sosial rifah problemlərini həll etmək üçün sosial-demoqrafik, psixoloji və pedaqoji biliklərə arxalanaraq mövcud ailə problemlərini araşdırmağı bacarır. |

| |
|---|
| **FTN 4** Ailə ilə əlaqəli kəmiyyət və keyfiyyət sosioloji tədqiqat metodlarından istifadə etməyi bacarır. |
| **FTN** Ailə həyatı ilə bağlı sosioloji məlumatları toplayır və təhlil edir; elmi-tədqiqat metodları əsasında ailənin empirik sosioloji tədqiqatını aparır. |
| **FTN 6** Müasir ailənin inkişaf perspektivlərini müəyyənləşdirir və ailə planlaşdırılmasına dair proqnozlaşdırma aparmağı bacarır. |

| **Sosial münaqişələr** |
|---|
| **FTN 1** Sosial münaqişələri başqa tip münaqişələrdən (məs., siyasi, iqtisadi, hərbi və s.) fərqləndirməyi, sosial münaqişəyə dair nəzəri və metodoloji yanaşmaları müqayisəli əsasda tənqidi təhlil etməyi bacarır. |
| **FTN 2** Sosial münaqişələri nəzəri yanaşmalar nöqteyi-nəzərindən şərh etməyi, onların diaqnostikası və doğru həlli üçün etibarlı vasitələri seçib tətbiq etməyi bacarır. |
| **FTN 3** Cəmiyyətin müxtəlif sahələrində sülhə, sosial kompromisə, müsbət konsensusa, dözümlülük əldə etməyə yönəlmiş sosial proqramları təhlil və tətbiq etməyi bacarır. |
| **FTN 4** Təşkilatlardakı münaqişə vəziyyətlərini təhlil edir, təşkilatın münaqişə yaradan potensialı ilə bağlı ekspert rəyləri verir, tətbiq olunan tədqiqat metodlarından istifadə edərək təşkilatın vəziyyəti haqqında məlumatlardan istifadı etməyi bacarır. |
| **FTN 5** Korporativ münaqişələrin həlli üçün texnologiyalar hazırlayır və idarəetmədə taktiki və strateji qərarların münaqişə yaradan potensialını minimuma endirməyi bacarır. |
| **FTN 6** Münaqişə və sülhün fənlərarası təhlili metodologiyasını tətbiq edir, konfliktologiya mövzusunu, münaqişə və sülhün çoxfaktorlu şərtliliyini nəzərə alaraq mənimsədiyi biliklərdən istifadə etməyi bacarır. |

| **Dinin sosiologiyası** |
|---|
| **FTN 1** Dini fenomenlərin tədqiqinə sosioloji yanaşmanı tətbiq etməyi, dinin sosioloji izahını digər nəzəri yanaşmalardan fərqləndirməyi bacarır. |
| **FTN 2** Əsas dini təlimlərin xüsusiyyətlərini onlarda müəyyən sosial qrupların mənafelərini əks etdirmək baxımından izah etməyi; dinin açıq və gizli funksiyalarını fərqləndirməyi bacarır. |
| **FTN 3** Fərdlərin iqtisadi davranışlarını müxtəlif dini və iqtisadi etikalara mənsubiyyəti baxımından şərh etməyi bacarır. |
| **FTN 4** Müxtəlif tip cəmiyyətlərdə dini institutların əsas funksiyalarını, onların aşkar və latent funksiyalarını müəyyənləşdirməyi bacarır, bu funksiyalara dair informasiya mənbələri ilə bağlı tənqidi təhlil bacarıqlarına yiyələnir. |
| **FTN 5** Müxtəlif tipli müasir dini qurumlarda baş verən sosial proseslər haqqında məlumatları seçir və ilkin təhlillər aparmağı bacarır. |
| **FTN 6** Dinin əsas anlayışlarına yiyələnərək, hazırda və gələcəkdə dini qurumların inkişafında müşahidə olunan əsas meylləri elmi şəkildə izah etməyi bacarır. |

| Sosial struktur və sosial stratifikasiya |
| --- |
| **FTN 1** Müasir cəmiyyətin müxtəlif sferalarında sosial stratifikasiya və sosial mobillik məsləlləri ilə bağlı baş verən sosial cəhətdən əhəmiyyətli prosesləri və problemləri müəyyənləşdirərək onları təhlil etməyi bacarır. |
| **FTN 2** Sosial strukturun nəzəri-praktiki problemlərinin təhlilində elmi ədəbiyyatla yaradıcı şəkildə işləməyi, müxtəlif sosial-tarixi şərtlərə münasibətdə sosial və struktur proseslərin vəziyyətini əsaslı şəkildə qiymətləndirməyi bacarır. |
| **FTN 3** Stratifikasiya sistemlərinin tiplərini, sosial stratifikasiyanın profilini, funksiyalarını, müəyyən bir cəmiyyətdə sosial mobilliyin və sosial təkrar istehsalın xüsusiyyətlərini təhlil etməyi bacarır. |
| **FTN 4** Layihə, konsaltinq, monitorinqq işlərinin planlaşdırılması və həyata keçirilməsini, cəmiyyətdəki sosial-struktur münasibətlərində baş verən transformasiya proseslərini, sosial təbəqələşmənin yeni formalarını, sosial mobilliyin meylləri və istiqamətlərində radikal dəyişikliklərin, şəxsiyyətin və qrupun, onların davranış modellərinin müxtəlif meyarlar üzrə ekspertizasını aparmağı bacarır. |
| **FTN 5** Sosial strukturda baş verən proses və hadisələri sosioloji tədqiqatın metod və metodikalarından istifadə etməklə müasir cəmiyyətin sosial gerçəkliklərini izah etməyi bacarır. |
| **FTN 6** Sosial strukturun və sosial proseslərin müxtəlif problemləri ilə bağlı öz mövqeyini formalaşdırmağı və əsaslandırmağı, onları tənqidi şəkildə qiymətləndirməyi bacarır. |

| Məlumatların təhlili və ölçmə nəzəriyyəsi |
| --- |
| **FTN 1** Peşəkar fəaliyyətində təbiətşünaslıq fənlərinin əsas qanunlarından və müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edə bilir. |
| **FTN 2** Sosioloji problemlərin tədqiqində ölçmə nəzəriyyəsinin anlayışları və metodlarından istifadə etməyi, riyazi təhlil, modelləşdirmə və eksperimental tədqiqat metodlarını tətbiq etməyi, ölçmə nəzəriyyəsinin anlayışlarını və metodlarını riyazi statistikanın anlayışları və metodları ilə əlaqələndirməyi bacarır. |
| **FTN 3** Sosiologiyada ölçmə və şkala qurmanın praktiki, vizual və interpretativ üsullarından istifadə etməyi bacarır. |
| **FTN 4** SPSS proqramında baza yaratmağı və reqressiya modelinə kateqorial dəyişənlərin, kateqorial və interval dəyişənlərin qarşılıqlı təsirinin effektlərini daxil etməyi bacarır. |
| **FTN 5** Dispersiya və korrelyasiya təhlilllərindəndən istifadə etməyi bacarır; toplanılmış məlumatları təhlilə hazırlamaq üçün konsolidasiya, transformasiya, vizuallaşdırma, keyfiyyətin qiymətləndirilməsi, məlumatların aydınlaşdırılması və emalı metodlarını tətbiq etməyi, eləcə də ekspert qiymətləndirməsi metodundan istifadəni bacarır. |
| **FTN 6** Təşkilati-idarəetmə məsələlərinin həlli üçün kompleks sosial informasiyanın toplanılması, emalı və interpretasiyası metodlarından istifadə etməyi bacarır. |

| Demoqrafiya |
|---|
| **FTN 1** Demoqrafik şəraiti qiymətləndirməyi, demoqrafik proseslərin əsas meyllərini və amillərini təhlil etməyi bacarır. |
| **FTN 2** Sosioloji və demoqrafik məlumat toplama metodlarından idarəetmə məsələlərinin həlli üçün effektiv istifadə etməyi bacarır. |
| **FTN 3** Əldə ediliş bilikləri müasir Azərbaycanda bu və ya digər sosial qrupların həyat fəaliyyətinin daha dərindən başa düşülməsi və öyrənilməsi məqsədilə istifadə etməyi bacarır. |
| **FTN 4** Demoqrafiya sahəsində idarəetməyə dair təkliflər hazırlamağı və onlardan effektiv iistifadəni, bunun üçün nizamlayıcı xarakter daşıyan uyğun alət və texnologiyalardan istifadə etməyi bacarır. |
| **FTN 5** Üçüncü demoqrafik keçid anlayışının müxtəlif ölkələrin siyasət və iqtisadiyyatı üçün rolunu təhlil etməyi bacarır. |
| **FTN 6** Yaş, cins, xüsusi və ümumi doğuş nisbətlərini və d. göstəriciləri hesablamağı, bu məqsədlə demoqrafik proqnozlardan, eləcə də sosial-iqtisadi inkişaf planlarının hazırlanmasında zəruri üsullardan istifadə etməyi bacarır. |

| Sosiolinqvistika |
|---|
| **FTN 1** Dilin əsas fonetik, leksik, qrammatik, söz formalaşması hadisələri və fəaliyyət qaydaları, onun funksional növləri haqqında biliklər daxil olmaqla dil bilikləri sistemindən istifadə etməyi bacarır. |
| **FTN 2** Sosiolinqvistikanın da xüsusiyyətləri nəzərə alınmaqla sosial problemlərin həlli üçün sosioloji biliklərdən, sosioloji tədqiqat metodlarından istifadə etməyi bacarır. |
| **FTN 3** Fonetik, leksik, semantik-sintaktik və praqmatik səviyyələrin linqvistik və milli-mədəni özəlliklərin xüsusiyyətləri nəzərə alınmaqla mətn/diskursların linqvistik təhlilini aparmağı bacarır. |
| **FTN 4** Linqvistik məlumatlara əsaslanaraq sosial stratifikasiyanı təsvir etməyi bacarır. |
| **FTN 5** Ünsiyyətin bütün registrlərini – rəsmi, qeyri-rəsmi, neytral və s. təhlil etməyi; sosial münasibətlərin linqvistik fonunu dərk etməyi və onlardan adekvat istifadə etməyi bacarır (salamlama, vida, emosional həyəcan formulları). |
| **FTN 6** Xarici mədəniyyətlərdə qəbul edilmiş etik davranış qaydalarını, ritualları, etik və əxlaqi davranış normalarını müqayisə etməyi bacarır. |

| Sosial menecment |
|---|
| **FTN 1** Sosial menecment sahəsində peşəkar məsələlərin həlli üçün sosioloji metodları əsaslandırmağı və onları tətbiq etməyi bacarır. |
| **FTN 2** Sosial idarəetmənin mahiyyətini və müasir təşkilatın inkişafındakı rolunu mənimsədiyi biliklərdən istifadə edərək əsaslandırmağı bacarır. |
| **FTN 3** Sosial-iqtisadi, siyasi və idarəetmə proseslərinin öyrənilməsində əsas yanaşmaları, habelə onların Azərbaycanda tətbiq olunmasının xüsusiyyətlərini müəyyənləşdirməyi, |

| |
|---|
| kompleks sosial proseslərin əsas qanunauyğunluqlarından və əsas sosial icmaların fəaliyyət mexanizmlərindən istifadə etməyi bacarır. |
| **FTN 4** Sosial proseslər və sosial icmalar haqqında məlumatları toplamağı, emal və təhlil etməyi bacarır. |
| **FTN 5** Fərqli cəhətlərdən (istehsal, motivasiya, institusional və s.) iqtisadi və sosial agentlərin davranışlarını, peşə fəaliyyət sahəsindəki obyektlərin inkişaf tendensiyalarını tənqidi şəkildə qiymətləndirməyi bacarır. |
| **FTN 6** Xüsusi vəziyyətlərin təhlilində sosial-iqtisadi xarakterli problemləri müəyyənləşdirir və onların həlli yollarını və gələcək nəticələrin qiymətləndirilməsini aparmağı bacarır. |

| **Hüququn sosiologiyası** |
|---|
| **FTN 1** Hüquq sosiologiyasının, qanunverici sosiologiyanın, hüquq münaqişəsi sosiologiyasının, hüquq mühafizə sosiologiyasının əsas prinsiplərindən istifadə etməyi bacarır. |
| **FTN 2** Cəmiyyətin hüquq sisteminin ən vacib elementləri və qanuni fəaliyyətin əsas növlərindən geniş sosial kontekstdə istifadə, onların ictimai hadisə və proseslərlə əlaqəsini təhlil etməyi bacarır. |
| **FTN 3** Hüquqi problemi formulə edir və onu öyrənməyin sosioloji yollarını müəyyən edə bilir. |
| **FTN 4** Qanuni tənzimləmənin effektivliyini təhlil etməyi bacarır. |
| **FTN 5** Hüquq sosiologiyasının konseptual aparatını, hüquq sosiologiyası sahəsində elmi tədqiqat metodologiyasını tətbiq etməyi bacarır. |
| **FTN 6** Hüquqi problemləri həll etmək üçün sosiologiyanın tətbbiqi metodlarından istifadə etməyi bacarır. |

| **Sosial proqnozlaşdırma və layihələndirmə** |
|---|
| **FTN 1** Sosial əhəmiyyətli proses və hadisələri təhlil etmək üçün müasir proqnoz və dizayn metodlarının nəzəri əsaslarını və xüsusiyyətlərini tətbiq etməyi bacarır. |
| **FTN 2** Sosial proqnoz və dizayn metodlarından istifadə edərək sosial cəhətdən əhəmiyyətli proses və hadisələri təhlil etməyi bacarır. |
| **FTN 3** Sosial proseslər və sosial birliklər haqqında məlumat hazırlamağı, seçməyi, onları emal və təhlil etməyi bacarır. |
| **FTN 4** Müəyyən bir tədqiqatın məqsədlərinə uyğun məlumat toplamağı və təhlil metodlarını tətbiq etməyi, məhdudiyyətləri nəzərə almağı, sosioloji məlumatların keyfiyyətini (mötəbərliyini və doğruluğunu) qiymətləndirməyi bacarır. |
| **FTN 5** Tətbiqi statistik proqram paketlərindən istifadə edərək sosioloji məlumatları təhlil etməyi bacarır. |
| **FTN 6** İnternet resursları və xarici ədəbiyyat da daxil olmaqla müxtəlif mənbələrdən sosial proqnozlaşdırma və layihələndirməyə dair peşəkar məlumatlardan istifadə etməyi bacarır. |

| Mədəni sosiologiya |
|---|
| FTN 1 Sosial-mədəni prosesin müxtəlif mərhələlərində tarixi xüsusiyyətləri təhlil etməyi bacarır. |
| FTN 2 Mədəniyyətin sosial aspektlərini müəyyənləşdirməyi bacarır. |
| FTN 3 Müasir və post-modern cəmiyyətdə institutların və birliklərin fəaliyyəti ilə əlaqəli əsas problemli mədəniyyət sahələrini, anlayışları və nəzəriyyələri müqayisəli şəkildə təhlil etməyi bacarır. |
| FTN 4 Mədəniyyət istehlakçılarının müxtəlif fəaliyyət formalarını və müvafiq birliklərin təşkilini layihələndirməyi bacarır. |
| FTN 5 Mədəniyyətin müqayisəli sosiologiyasının analiz metodlarını tətbiq etməyi bacarır. |
| FTN 6 Müasir dünyanın mədəni və ictimai-siyasi problemlərin təhlili üçün mədəniyyət sosiologiyasının nəzəri və təcrübi imkanlarından istifadə edərək bu sahədə proqnozlaşdırma aparmağı bacarır. |

| Media və cəmiyyət |
|---|
| FTN 1 Media mətnlərini auditoriya ilə media sənayesi arasında vasitəçi kimi təhlil etməyi bacarır. |
| FTN 2 Medianın istehsalında və yayılmasında media qurumlarının rolunu müəyyən etməyi bacarır. |
| FTN 3 Media auditoriyasının müxtəlif növlərini və seqmentlərini müəyyənləşdirməyi, müxtəlif metodlardan istifadə edərək onları təhlil etməyi, medianın auditoriyaya təsirini təhlil etməyi bacarır. |
| FTN 4 Çap mediasının əsas tipologiyasını, istehlak və istehsal nümunələrini, vizual medianın istifadəsi və istehsalının əsas nümunələrini müqayisəli əsasda tənqidi təhlil etməyi bacarır. |
| FTN 5 Səs hərəkətlərinin əsas tipologiyalarını və nümunələrini başa düşürək onlardan praktiki istifadə etməyi bacarır. |
| FTN 6 İnsanın məkan qavramasında medianın rolunu proqnozlaşdırmağı bacarır. |

| "İqtisadiyyatın əsasları" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 İqtisadi nəzəriyyənin əsas kateqoriyaları və anlayışları haqqında biliklər əldə etmək; iqtisadi subyektlərin davranış prinsiplərini öyrənmək. |
| FTN 2 İqtisad elminin konsepsiyaları və istiqamətləri, iqtisadi modellər haqqında təhlillərlə tanış olmaq; iqtisadiyyatda bazar mexanizminin rolu haqqında təsəvvürə malik olmaq, iqtisadi hadisə və prosesləri məzmun və formal təhlilinin ilkin vərdişlərini öyrənmək. |
| FTN 3 İqtisadi proseslər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, iqtisadi qanunauyğunluqlar haqqında biliklər əldə etmək. |
| FTN 4 Makroiqtisadiyyat və mikroiqtisadiyyatın əsasları haqqında biliklər formalaşdırmaq. |
| FTN 5 Bazar iqtisadiyyatının fəaliyyət qanunauyğunluqlarını; bazar iqtisadiyyatında dövlətin rolu və funksiyalarını qiymətləndirə bilmək. |
| FTN 6 İqtisadi subyektlərin qərar qəbul etmə mexanizmini, ümumi iqtisadi göstəriciləri təhlil etmək. |

| “Mülki müdafiə” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fövqəıladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək; |
| FTN 2 Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN 3 Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| FTN 4 Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN 5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| FTN 6 FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

| “Azərbaycan Respublikası milli təhlükəsizliyinin əsasları” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Milli təhlükəsizliklə bağlı nəzəriyyələri praktik nümunələr üzərində tətbiq etməyi bacarmaq. |
| FTN 2 Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin konseptual və hüquqi əsaslarını təhlil edərək onun tətbiq olunduğu mühiti izah etməyi bacarmaq. |
| FTN 3 Azərbaycan Respublikasının transmilli təhdilərə qarşı mübarizəsini təhlil etmək və qiymətləndirmək. |
| FTN 4 Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, əsas təhdidlər və onlara qarşı mübarizəyə dair sistemli bilikləri formalaşdırma qabiliyyəti var. |
| FTN 5 Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ayrı-ayrı elementləri, istiqamətlərinə dair sistemli baxışlar formalaşdırmaq qabiliyyəti var |

| FTN 6 Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizliyin təmin olunmasında yerini və rolunu təhlil edə və müəyyənləşdirə bilmək. |
|---|

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN10 | PTN11 | PTN12 | PTN13 |
| Ümumi fənlər | Azərbaycanın müasir dövlətçilik tarixi | | | X | | | | | | | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | | | | |
| | Riyaziyyat və statistika | | | X | | | | | | | | | | |
| | Müasir informasiya -kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi | | | | | | | | | X | | | | |
| | Siyasət nəzəriyyəsi | | | X | | | | | | | | X | | X |
| | Fəlsəfə | X | | | | | | | | | | | | |
| | Sosial pedaqogika | | | | | | | | X | | | | | |
| | Sosial psixologiya | | | | | | | | | | X | | | |
| | Ümumi sosiologiya | | | X | | | | X | | | | | | |
| | Sosiologiya tarixi | | | X | | X | X | | | | | | | |
| İxtisas fənləri | Sosioloji tədqiqat metodları | X | | | X | | | | | X | | | | |
| | Siyasi sosiologiya | | | | | | | | X | X | | | | X |
| | Ailənin sosiologiyası | | | | | | | | X | X | | | | |
| | Azərbaycanın milli təhlükəsizliyi | | | | | | | | X | | X | X | | |
| | Sosial münaqişələr | | | X | | | | | | | | X | | |
| | Dinin sosiologiyası | | | | | | X | | | | | | | |
| | Sosial struktur və sosial stratifikasiya | | | | | | X | | | | | | | |
| | Məlumatların təhlili və ölçmə nəzəriyyəsi | | | | | | | X | | | | | | |
| | Demoqrafiya | | | | | | X | | | | | | | |
| | Sosiolinqvistika | | | X | | | | | | | | | | |
| | Sosial menecment | | X | X | | | | | | | | | | |
| | Hüququn sosiologiyası | X | | | | | | | | | | | | |
| | Sosial proqnozlaşdırma və layihələndirmə | | | | | | | | | | X | | | |
| | Mülki müdafiə | X | | | | | | | | | | | | |
| | Mədəni sosiologiya | | | | | | | X | X | | | | | |
| | Media və cəmiyyət | | | | | | | | X | | | | | |
| | İqtisadiyyatın əsasları | | | | | | | | | | | | X | |
| | | | | | | | | | | | | | | |